*Akif Mirabov - 75*

# Allah vergisi olan aktyor

## *Akif Mirabov: "Qarabağ torpaqlarımızın tam azad olmasını, xalqımıza daima firavan yaşamağı arzulayıram"*

Bugünki müsahibim ustad sənətkarımız, bir çox fəxri təltiflərin sahibi Respublikanın Əməkdar artisti, Mingəçevir Dövlət Dram Teatrının sabiq aparıcı aktyoru və bu gün təqaüddə olan Akif Əhməd oğlu Mirabovdur.Düzünü desəm aktyorlar üçün deyilən bu "sabiq" sözündən heç xoşum gəlmir. Ümumiyyətlə, bu sözün, bu ifadənin yaradıcı şəxslərə deyilməsini və onlara şamil olunmasının tam əleyhinəyəm. Çünki uzun illərdir ortaya atılan "Yaş senzi" oyunu aktyora, teatr işçisinə şamil olunmamalıdır. Yaradıcı insan daima öz yaradıcılığı ilə məşğul olmalıdır.Nə qədər ki, fiziki durumu buna imkan verir, bu məncə belə olmalıdır.Respublikanın bütün dövlət teatrlarında təqaüdə çıxan aktyorların çoxu halədə işləyirlər və gənc nəsilə də örnəkdirlər.Amma çox təəssüf ki, əyalət teatrlarında belə deyil.Hansı ki, bu teatrların peşəkar aktyorlara çox böyük ehtiyacı var. Eləcə də bizim Mingəçevir Dövlət Dram Teatrında belə ustad sənətkarlara təkcə kollektivin yox, həm də tamaşaçıların böyük ehtiyacı var. Çox təəssüf ki, bizim Mingəçevir Dövlət Dram Teatrında cəmi 4 nəfər ali təhsilli aktyor var. Əslində teatrın bütün truppası ali təhsilli olmalıdır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsini bitirənlər əyalət teatrlarına işləməyə gəlmək istəmirlər. Çünki əyalətdəki İcra Hakimiyyətinin başçıları hökmən gənc aktyorlara mənzil şəraiti yaratmalıdır. Onlar da bu şəraiti yaratmaq istəmirlər. Teatrda ali təhsilli aktyorların da az olması istər-istəməz sənəti cılızlaşdırır.

Amma yaxşı ki, bizim teatrda gənc aktyorlar üçün bir örnək olan Akif Mirabov kimi gözəl sənətkar var. Çox təəssüf ki, "yaş senzi" oyunu Mədəniyyət Nazirliyi tərəfindən ona da tətbiq olunub və teatrda hazırlanan tamaşalarla o, aktyor kimi dəvət olunmur. Amma çox təəssüf. Mən çoxminli oxucuları bir daha Akif Mirabovla daha yaxından tanış etmək istəyirəm.

**Qısa arayış: Akif Əhməd oğlu Mirabov 1947-ci ildə Mingəçevir şəhərinin Xanabad kəndində doğulub.1965-ci ildə Xalq Teatrında, 1968-ci ildən isə Mingəçevir Dövlət Dram Teatrında aktyor kimi işə başlayıb. Orta təhsilini də 6 saylı məktəbdə alıb. O, 1968-ci ildən- 2017-ci ilədək teatrda aktyor işləyib.Bu müddət ərzində irili - xırdalı 150-dən çox obraz yaradıb, əksəriyyəti də baş rollardır.Akif Mirabov üçün rolun böyüyü kiçiyi olmayıb.Bütün obrazları həvəslə, ustalıqla yaradıb.Dövlətimizdə onun bu xidmətini yüksək qiymətləndirib.2000-ci ildə Respublikanın Əməkdar artisti, 2013- cü ildə "Tərəqqi" medalı, 2019-cu ildə Prezidentin Fəxri diplomu və bir çox fəxri fərmanlarla təltif olunub.Amma hansı səbəbdənsə ona hələ ki, Prezidentin Fərdi Təqaüdü verilməyib. Ailəlidir. İki övladı var.**

Mən uzun illərdi ki, Akif Mirabovla işləyirəm. O, çox əxlaqlı, qürurlu və təvəzökar bir şəxsiyyətdir.O, öz ailəsinə, övladlarına bağlı bir insandır. Heç kimdən heç nə ummayıb.Ad -sanından, ona olan hörmət və izzətdən sui istifadə etməyib. Akif Mirabov üçün yazdığım qısa arayışda iki övladı var yazmışam.Bəli, iki övladı var, ancaq biri şəhid olub.Azərbaycanın Milli Qəhrəmanı Rəşad Akif oğlu Mirabov bütün Azərbaycan, ümumilikdə türk dünyası üçün yaşayır və yaşayacaqdır! Rəşad Mirabov 1995-ci ildə şəhidlik zirvəsinə ucalıb.Halhazırda Mingəçevirdəki 7 saylı orta məktəb şəhidimizin adını daşıyır.Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların yaxınlarına, əzizlərinə, övladlarına can sağlığı versin.Sən də sevimli aktyorumuz başını dik tut! Həmişə olduğu kimi qürurlu ol, həmişə qürurunu necə qoruyub saxlamısansa elə də saxla.Bax, beləcə əziz oxuyucularımız istəyirəm ki, sizləri ustad aktyorumuz Akif Mirabovun yaradıcılığı, həyata baxışı ilə qismən də olsa tanış edim.

**-Akif müəllim necə oldu ki, bu sahəni seçdiniz, aktyor oldunuz?**

- Bu sahəni elə lap orta məktəb illərindən sevmişəm.Uşaq yaşlarımdan Mingəçevirdəki pionerlər evində dram dərnəyinə getmişəm.Sonralar Mədəniyyət Sarayındakı Xalq teatrlarına çağrılmışam. Xalq Teatrı da elə indiki bu binada yerləşirdi.Xalq Teatrının çox rəngarəng repertuarı və bir çox istedadlı aktyorlarıvardı. Bizim hazırladığımız tamaşalar mərkəzin - Bakının da diqqətini özünə cəlb etmişdi.Elə bu səbəbdən də bizim teatra 1969-cu ildə Dövlət Teatr statusu verildi.Bir sözlə, indiki Mingəçevir Dövlət Dram Teatrımız Xalq Teatrı-



nın bazasında yaradılıb. Xalq teatrında fəaliyyət göstərən bəzi istedadlıları da Dövlət Teatrında işləməyə dəvət etdilər. Sonralar institutdan ali təhsilli aktyorlar, rejissorlar təyinatla gəlib bizimlə birgə işlədilər.Bax, beləcə teatr formalaşdı və məşhurlaşdı. Çox gözəl günlərimiz, maraqlı tamaşalarımız olub...Yüksək səviyyəli tamaşalar, çox istedadlı truppa, teatrı dərindən bilən və sevən rəhbərlik olub (köks ötürür və təhsüflənir). Əfsus ki, bu gün ali təhsilli aktyorlar rayon teatrlarına işləməyə gəlmək istəmirlər. Çünki yerli rəhbərlik onlara ev verməli və maddi şəraitinin yaxşılaşmasına köməklik etməlidir. Bu da mümkün deyil. Əyalət teatrlarında əsasən teatrın nəzdində olan teatrstudiyanı bitirən istedadlı gənclər çalışır. Yaxşı olardı ki, Dövlət Mədəniyyət və İncəsənət Universiteti onlar üçün ali təhsil ocağında qiyabi kurs təşkil eləsin və bu gənclər də gedib orada dərs deyən ustad pedaqoqlardan dərs alsınlar. Bu, işin çox xeyrinə olardı. Onda əyalət teatrlarında peşəkarlıq artardı.

**- Bu, çox yaxşı fikirdir. Gərək Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Mədəniyyət Nazirliyi bu haqda ciddi fikirləşsin. Amma nədən belə köks ötürdünüz, özüdə lap dərindən?**

-Hər bir insanda nastolji hisslər var, yaxşı və ya pis.Yaxşı hisslərlə yaşayanda xoş xəyallara dalırsan.Keçən o işküzar mehriban enerjili günləri bir daha xatırlayıb o günləri təkrar yaşamaq istəyirsən.Təbii ki, o günləri bir daha yaşamaq mümkün deyil. Neqativ, pis hissləri də qəlbindən birdəfəlik kənarlaşdırmaq çətindir.

**-Geriyə baxanda nə düşünürsünüz? Gələcək Azərbaycan teatrını necə görmək istəyirsiniz?**

-Deyərdim ki, elə bu əvvəlki sualınızın davamındır.Geriyə baxanda gərgin yaradıcılıq işləri, möhtəşəm tamaşalar, maraqlı qastrol səfərləri, gur tamaşaçı alqışları, tələbkar tamaşaçılar və ən nəhayət çox mehriban, istedadlı aktyor truppası, üstəgəl dramaturgiyanı dərindən bilən, öz dəsti- xətti olan rejissorlar vardı o zamanlar.İndiki teatrı da belə görmək istərdim.

**-Demək istəyirsiniz ki, indiki teatrlar belə deyil?**

-Bir mənalı deyərdim ki, əsla yox. Belə deyil!

**-Xahiş edirəm bir az ətraflı açıqlayasınız?**

-Bilirsiniz teatrda işləmək üçün birinci növbədə teatrı dərindən sevmək lazımdır.Sözün yaxşı mənasında gərək teatrın fanatı,.fədaisi olasan. Fərq eləməz texniki heyyət və ya yaradıcı heyyət.Teatrı sevməkdən əvvəl bu sahəni də dərindən bilməlisən.Bu bilgi və sevgi teatr rəhbərliyindən tutmuş texniki heyyətə, teatr fəhləsinə qədər hamısında olmalıdır.Necə ki, böyük teatr islahatçısı Kostantin Sergeyeviç Stanslaviskinin belə bir məraqlı kəlamı var: "Teatra sevgi asılqandan başlayır".Amma bu segi indi hamıda varmı? Mən bu sevgi və bilgini teatrımızda bir neçə aktyorları çıxmaq şərti ilə heç birində görmürəm.

**-Siz demək istəyirsiniz ki, teatrın gələcək inkişafından istedadlı aktyor truppasıdan ümidimizi tamam üzək?**

-Mən hələki, belə demək istəmirəm, çıxış yolu hər bir sahədə olduğu kimi teatrlarda da var. İlk öncə repertuara diqqət etmək lazımdır.Yaxşı repertuar seçmək, tez-tez yaradıcılıq müşavirləri keçirmək, çıxış yolları axtarmaq lazımdır. Mədəniyyət Nazirliyi və Mədəniyyət və İncəsənət Universiteti ilə şəhər rəhbərliyi səviyyəsində əlaqələr qurmaq, müqavilə ilə teatra təhsil görmüş, təcrübə keçmiş aktyorlar dəvət etmək lazımdır.İşsizliyin tüğyan etdiyi bir vaxtda yoldan keçən təsadüfi bir adam da gəlir aktyor olur.Yəni işsiz qalmasın deyə gəlib teatrda aktyor truppasına işə düzəlir. Beləsinə teatrı sevdirmək olarmı?Ona teatr bilgisi, dramaturgiya nədir öyrətmək olarmı? Əlbəttə ki, yox! Amma əslində ali təhsilli aktyor işə qəbul olanda bilirsən ki, bunun təcrübəsi və təhsili var. Amma işsizlik ucbatından gəlirsə onda rejissorun və bir neçə peşəkar aktyorun iştiraki ilə onun bu sahədə olan qabiliyyətinə baxış keçirilməlidir.Bir növ buna sınaq imtahanı da demək olar.Bir sözlə belə deyək ki, aktyor qəbulu rejissorun başçılığı ilə həyata keçirilməlidir.Əgər tələffüzü, danışığı, səhnə baxımı, səhnə görünüşüyerindədirsə buyursun.Bu gələcək aktyorun ilkin işartılarıdır.Onda gələcək fəaliyyəti tərəf müqabilləri və rejissorun köməyi ilə püxtələşəcək və peşəkarlığa doğru ilkin addımlarını atacaq. Sənətinidə dərindən sevsə inandıram ki, bu lap müsbət nəticə verəcək. Siz özünüzdə yaxşı bilirsiniz ki, istedad tək təhsildən ibarət deyil. İstedad Allah vergisidir. Öz təcrübəmdə ali təhsilli aktyorlarla da işləmişəm. Onlar səhnənin xəlbirindən keçə bilməyib, başqa iş dalınca gediblər.

**-Böyük mütəxəssislər belə deyir ki, müasir teatr rejissor teatrı olmalıdır ki, orada sağlam truppa olsun və gərgin yaradıcılıq işləri davamlı formada getsin. Siz bu haqda nə deyə bilərsiniz?**

-Bəli necə ki, Azərbaycan teatr tarixinə baxanda bu belə də olub.Adil İsgəndərov, Mehdi Məmmədov,Tofiq Kazımov teatrı, məktəbideyiblər.Sonradan bu estafeti digərlərinə ötürülüb və bunlarında öz dəsti- xətləri olub.Digərlərindən yaxşı mənada fərqləniblər. Buna misal olaraq mərhum Vaqif İbrahimoğlunun "Yuğ", Hüseynağa Atakişiyevin Dövlət Gənclər Teatrını, Bəxtiyar Xanızadənin "Pantamimo"Teatrını misal göstərmək olar.Bu teatrlar zaman- zaman məhşurlaşıb. Həmişə inkişafda olublar. Çox əfsus ki, Hüseynağa Atakişiyev dünyasını dəyişəndən sonra onun teatrının Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə birləşdirdilər. Bu, çox səhv bir addım idi. Bu möhtəşəmlik, bizdə, Mingəçevirdə də belə ola bilərdi.Yəni bu gün Mingəçevir Dövlət Dram Teatrı da respublikada ən üzdə olan teatrlardan biri ola bilərdi. Respublikanın Xalq artisti, Azərbaycan sənətçiləri tərəfindən yaxşı tanınan mərhum Zülfüqar Abbasov çox təcrübəli istedadlı bir rejissor idi. O, Mingəçevir Dövlət Dram Teatrının qurucularındandır. Əfsus ki, ona qarşı da bir vaxtlar çox böyük haqsızlıq oldu və onu teatrdan işdən çıxardılar. O da bu biganəliyə, haqsızlığa dözə bilməyib, dünyasını dəyişdi. Ondan sonra Mingəçevir Teatrı da tənəzzülə getdi. Siz əvvəl mənə sual verdiniz geriyə baxanda nəyi görmək istərdiniz? Davamı olaraq mən sizə bir də cavab verirəm.Mən bax, o Zülfüqar Abbasovun yaratdığı truppanı, onun dövründə hazırlanan monomental tamaşaları görmək istəyərdim.Sevinirəm ki, indi teatrın baş rejissoru Moskvada ali rejissor təhsili alan, çox istedadlı aktyor və rejissor Vüsal Mehrəliyevdir. Ona lazım olan şərait yaradılsa Mingəçevir Teatrı üçün çox maraqlı işlər görəcək. Teatrımız az bir vaxtda respublikanın ən maraqlı teatrlarından biri olacaq. Çox sevinirəm ki, Əməkdar artist İntiqam Soltanı da bu teatra direktor təyin ediblər. Onlar əl-ələ verib işləsələr bu teatr üçün çox böyük işlərgörə bilərlər. Çünki hər ikisi teatral insan və əsl yaradıcı mütəxəssisdirlər.

**-Siz təqaüdə çıxanda təklif etdilərmi ki, heç olmasa müqavilə əsasında qalıb işləyəsiniz?**

-Xeyir. Amma işlədiyim son illərdə 4 il Prezident mükafatı almışam.Fəxri ad, "Tərəqqi" medalı, Prezident diplomu, fəxri fərmanlar, dövlətimizin başçısı mərhum ulu öndərimiz Heydər Əliyev və sonradan onun varisi cənab prezidentimiz İlham Əliyev mənim sənətimə yüksək dəyər verib. Bütün bunlar da mənim daha da yaxşı işləməyimə ruh-rəvac verib. Amma böyük yaradıcılıq potensialımın olduğu vaxtda, teatra hələ lazım olduğum vaxtda "yaş senzi" oyunu ilə işdən uzaqlaşdırılmağım, əlbəttə, bir yaradıcı insan kimi bu, mənə çox pis təsir eləyir.

**-Akif müəllim mən yaxşı bilirəm ki, siz kollektivdə, şəhər ictimayətində çox sevilən, çox hörmətlə qarşılanan bir şəxsisiniz. Heç kimdən heç nə ummayan bir sənətçisiniz. Yenə qismən də olsa umacağınız nə isə bir şey varmı?**

-Bu yaşıma qədər heç kimdən heç nə ummamışam.Siz özünüz də yaxşı bilirsiniz ki, ulu öndərimiz Heydər Əliyev o vaxtlar hər il biz şəhid valideynlərini qəbul edirdi.Bu qəbul Respublika televiziyaları ilə də nümaiş etdirilirdi.Onda bizim arzu, istəklərimizi soruşurdu mən ondada heç nə ummamışam.Bu danılmaz faktır. Dahi rəhbər hər il bu qaydada bizi qəbul edirdi.Hər ildədə arzu, istəklərimizi çox təkidlə soruşurdu.Allah ona rəhmət eləsin.Umacağım yalnız bir şey vardı o da reallaşdı. Belə ki, 44 günlük Vətən müharibəsindəki qələbəmiz, hər bir azərbaycanlının baş tacıdır.

**-Çox rejissor və aktyorlarla işləmisiz. Onların iş üslubu, xoşunuza gələn tərəf müqabili kimi kimləri yaxşı xatırlayırsınız?**

-Vallah bunlar çoxdur, çoxları da dünyasını dəyişib.Neptun Tağıyev, Qasım Qasımov, Ərşad Qoçəliyev, Şirəli İlyasov, İsa Əlimov. Allah onlara rəhmət eləsin.Təvəkkül Əhmədov, Şıxı Yaqubov, Aliyə Mikayılova, Ella Yaqubova. Bunlar mənim sevimli tərəf müqabillərim olub.Tanınmış pedaqoq , rejissor mərhum Nəsir Sadıqzadə 1969-cu ildə Əziz Nesinin "Toros canavarı" pyesini Azərbaycanda ilk dəfə məhz bizim teatrın səhnəsində qoymuşdu.RejissorlardanXalq artisti, mərhumVaqif Əsədov,Azərbaycanın və Kalmıkiyanın Əməkdar incəsənət xadimi Bəhram Osmanov və başqaları. Çox istedadlı və maraqlı rejissorlarla işləmişik.Amma mütamadi olaraq Respublikanın Xalq artisti, mərhum Zülfüqar Abbasovla çox işləmişəm.Səhnədəki bütün fəaliyyətimə və uğurlarıma görə məhz mərhum Zülfüqar Abbasova çox minnətdaram.

**-Sizi2019-cu ilin sentyabrında Respublikanın Əməkdar incəsənət xadimi, yazıçı-rejissor Ağalar İdrisoğlu Mingəçevir Dövlət Dram Teatrında quruluş verdiyi Qənbər Şəmşiroğlunun "Caninin etirafı" tamaşasına dəvət etdi və siz orada iki rol- Əngəl Əvəz və Müəllif obrazlarını yüksək peşəkarlıqla yaratmaqla çox gözəl aktyor oyunu nümayiş etdirdiniz. Bu haqda nə deyə bilərsiniz?**

-Bəli, maraqlı yazıçı, rejissor, publisist, jurnalist, Əməkdar incəsənət xadimiAğalar İdrisoğlu məni Qənbər Şəmşiroğlunun "Caninin ehtirafı" pyesində Müəllif və Əngəl Əvəz rollarına dəvət etdi.Həmkarım və dostum Təvəkkül Əhmədovla birlikdə Müəllif rolunu ifa etdik.Əməkdar artist Şıxı Yavubov-



la isə Əngəl Əvəz rolunu yaratdıq. Buna qədər mən və bir çox həmkarlarım Ağalar müəllimi qiyabi tanıyırdıq.Onun Ağdam və Sumqayıt teatrlarında uzun müddət uğurlu direktor və bədii rəhbər, quruluşçu rejissor olmağı barədə məlumatımız vardı.Onun 1990-cı illərdə yazmış olduğu "Məhkəmədən əvvəl məhkəmə" pyesinəbizim teatrda istedadlı aktyor-rejissor İldırım Cabbar da maraqlı quruluş vermişdi.Çox yaxşı tamaşa alınmışdı.

Ağalar İdrisoğlu ilə işləmək mənə xüsusi zövq verdi.O, çox işlək və son dərəcədə öz sənətini sevən bir insandır.Öz işindən heç yorulmur . Aktyorları çox sevir.Dedi-qodudankənar insandır.O, birinci gündən aktyorları tamaşanın uğur qazanacağına inandırır.Ümumiyyətlə , o, truppada hər şeyin uğurlu olacağına hamını inandıra bildi.Və əksər hallarda buna naildə oldu.Çox qısa müddətdə o, hamının sevimlisinə, doğmasına çevrilə bildi.O, təkcə məni yox, təqaüdə çıxmış bir neçə aktyoru- Təvəkkül Əhmədovu, Nəsibxan Əliyevi dəvət edib, onlara da rol tapşırdı.Hətta teatrın truppa müdiri Könül Hacıyevaya və rejissor assistenti Məlahət Ağayevaya da rol verdi. Hər ikisi də yaxşı oynadılar. Özü də Ağalar müəllim israrla deyirdi ki, "aktyor təqaüddə evdə yox səhnədə olmalıdır".O, bizə beləcə ruh, böyük sevgi verdi.Məncə əsl teatr adamı belə olmalıdır.Özünü, vəzifəsini yox, səhnəni, səhnəyə xidmət edənləri sevməlidir.Bu hər bir teatr rəhbərliyinin də vətəndaşlıq borcu olmalıdır. Çünki Ağalar İdrisoğlu əsl sənət adamıdır.

**-Ağalar İdrisoğlunun hazırladığı tamaşa necə qarşılandı?**

-Çox yaxşı və çox uğurlu tamaşa alınmışdır.Ağalar müəllim dediyi kimi də elədi. Biz "Caninin etirafı" tamaşa ilə Bakıda,Gəncədə, Tərtərdə qastrol səfərlərində olduq, çox yaxşı qarşılandıq.Sonralar bu bədnam pandemiya xəstəliyi başlandı.Qastrollarımız yarımçıq qaldı.İnşallah bundan sonra yaxşı olar. Yəqin ki, qastrollarımız davam edəcək. Hətta Ağalar İdrisoğlunun böyük təşəbbüsü və təşkilatçılığı ilə Qənbər Şəmşiroğlunun "Caninin etirafı" pyesi, tamaşa haqqında çap olunan resenziyalar, tamaşadan şəkillər artıq kitab kimi çap olunub. Bu, Azərbaycan teatr tarixində ilk işdir. Bu vaxta qədər belə formada. bu məzmunda kitab heç vaxt çap olunmayıb. OnunNicat Kazımovla Kiplinqin "Mauqli" əsəri əsasında yazdıqları "Mauqlinin yeni il arzuları" pyesinəverdiyi quruluşda çox maraqlı idi. Məktəblilər çox maraqla baxırdılar.

**-İnşallah biz sizi həmişə gümrah, sağlam və səhnədə görmək istəyirik.Çünki, kollektivimizin əksəriyyəti gənclərdi, siz isə onalara örnəksiniz.Allah sizləri qorusun! Sonda nə demək istəyirdiz?**

-Haqqımda dediyiniz xoş sözlər üçün sizə və redaksiyanıza, sizin simanızda bütün işçilərinizə minnətdarlığımı bildirirəm. Bircə arzum var ki, torpaqlarımız tam azadlığı çıxsın. Tezliklə üçrəngli bayrağımızı, Xankəndinə, Ağdərəyə, Xocavındə, Xocalıya da sancaq. Xalqımıza isə daima firavan yaşamağını arzulayıram.

**P.S.** Ümid edirəm ki, bundan sonra təqaüddə olan və fiziki durumu hələ də işləməyə imkan verən bəzi aktyorlarımız hazırlanan tamaşalara heç olmasa müqavilələr əsasında dəvətlər alacaqlar.Belə dəvətlər də teatra ancaq uğur gətirəcək.Necə ki, teatrımızın keçmiş direktoru, teatr sənətinin bilicisi, böyük təşkilatçı insan və indi hal-hazırda Ağdaş Regional İdarəsinin rəisi işləyən Səxavət Məmmədov, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunu quruluş verdmək üçün teatrımıza dəvət etdi. O, Qənbər Şəmşiroğlunun (səhnələşdirənləri Nəriman Ocaqlı, Ağalar İdrisoğlu) "Caninin etirafı" tamaşasına quruluş verməklə teatrımıza böyük uğur gətirdi.Təqaüddə olan Akif Mirabovun, Təvəkkül Əhmədovun, Nəsibxan Əliyevin bu tamaşada oynması da tamaşaya xoş ovqat gətirdi. Bax bu, uğurlu işə canlı sübutdur. Bu işi davam etdirmək lazımdır.

**Qabil İBRAHİMLİ,**
**aktyor-jurnalist,**
**"Azad Azərbaycan" qəzetinin xüsusi müxbiri**